DOI: 10.30546/114578.2024.2.1036.

ORTAQ TÜRK DİLLƏRİNDƏ ADVERMƏ ƏNƏNƏLƏRİ

Validə Abbasbəyli
Azərbaycan Milli Elmlər Akademiyası
Nəsimi adına Dilçilik İnstitutunun doktorantı
https://ORCİD.org/0009-0002-4909-504X
abbasbeylivalide97@gmail.com

Xülasə

Hər bir cəmiyyət advermə ilə xüsusi olaraq maraqlanmışdır. Advermənin tarixi bəşəriyyətin ilk dövrlərinə qədər gedib çıxır. Tarixən insanlar ətrafdakı hər bir varlığı adlandırmışlar. Çünki advermə ünsiyyət prosesinin bir parçasıdır. Hər bir xalqın advermə ənənəsində həmin xalqın mədəniyyətinin izlərinə rast gəlmək mümkündür. İnsanlar ad verərkən onların inancları, adət-ənənələri, ümid və arzuları kimi bir çox amilləri nəzərə alırlar. Bu, advermənin şüurlu bir hərəkət olduğunu göstərir. Türk cəmiyyətinin çox köklü advermə ənənəsi var. İslam dininin qəbulu türk cəmiyyətinin advermə ənənəsinə əhəmiyyətli dərəcədə təsir etmişdir. Bu vəziyyət türklərin advermə ənənəsinə təsir etsə də, türk xalqlarının advermə ənənələrini mahiyyət etibarilə saxladığını görmək olar. Uşaqlara ad verərkən fiziki xüsusiyyətlər, ailənin xüsusiyyətləri, uşağın doğulduğu vaxt, uşaqla bağlı arzu, istəklər əsas götürülüb.

Məqalədə türk xalqlarının aşağıdakı tarixi və müasir advermə ənənələrindən söhbət açılmışdır: qədim türklərdə uşaqlar 13-14 yaşına çatdıqda gördüyü işə görə onlara ad qoyulması; pis ruhlardan uşaqları qorumaq üçün onlara xüsusi adların verilməsi; körpələrin dəri rənginə görə adların qoyulması; hər hansı bir inanca görə ad verilməsi; tarixi şəxsiyyətlərin adlarının qoyulması; uşaq doğulan zaman baş verən hər hansı hadisəyə görə adların qoyulması.

Müasir dövrdə kino və filmlərin, digər xalqlarla əlaqənin adverməyə olan təsiri barəsində məlumatlar verilmişdir. Həmçinin məqalədə uşaqlara ad verilən zaman keçirilən mərasimlər də qeyd olunmuşdur.

Açar sözlər: türk xalqları, ad, advermə ənənələri, mədəniyyət, inanclar.

NAME-GIVING TRADITIONS IN COMMON TURKISH LANGUAGES

Valida Abbasbayli
Azerbaijan National Academy of Sciences

Abstract

The history of naming practices dates back to the earliest times of mankind. Historically, people have named every entity around them, as naming is part of the communication process. The naming traditions of each nation reflect traces of that nation's culture. When people choose a name, they consider many factors such as their beliefs, traditions, hopes, and dreams, indicating that naming is a conscious act.

Turkish society has a very deep tradition of naming. The adoption of Islam had a significant impact on the naming traditions of Turkish society. Although this influenced the naming practices of the Turks, it can be observed that they have essentially preserved their traditional naming customs. When naming children, factors such as physical characteristics, family traits, the time of the child's birth, and wishes related to the child are considered. This article discusses both historical and modern naming traditions of the Turkic peoples:

In ancient Turkish culture, children were often named based on the work they did at the ages of 13-14. Special names were given to children to protect them from evil spirits. Babies were named based on skin color. Names were chosen based on religious beliefs, historical figures, and significant events that occurred at the time of the child's birth.

In the modern era, the article provides information on the influence of cinema and media, as well as interactions with other nations on naming practices. The article also mentions the ceremonies held when children are named.

Key words: Turkish peoples, names, naming traditions, culture, beliefs.

ИМЕНЕНЧЕСТВА В ОБЩЕТУРЕЦКИХ ЯЗЫКАХ

Валида Аббасбейли
Национальная Академия Наук Азербайджана

Резюме

Каждое общество проявляет особый интерес к именованию. История этой практики уходит корнями в самые ранние времена человечества.

Исторически люди давали имена каждому существу вокруг себя, так как именование является частью коммуникационного процесса. Следы культуры каждой нации можно найти в ее традициях именования. При выборе имени люди учитывают множество факторов, таких как убеждения, традиции, надежды и мечты, что показывает, что именование — это осознанный акт.

Турецкое общество имеет очень глубокие традиции именования. Принятие ислама оказало значительное влияние на эти традиции. Хотя это повлияло на традиции именования тюрков, можно видеть, что они в основном сохранили свои традиционные обычаи. При именовании детей учитываются их физические особенности, семейные черты, время рождения, а также пожелания, связанные с ребенком. В данной статье рассматриваются следующие исторические и современные традиции именования у тюркских народов: У древних тюрков, когда дети достигали 13-14 лет, их называли по выполняемой работе. Детям давали особые имена, чтобы защитить их от злых духов. Младенцев называли по цвету кожи. Имена выбирались на основе религиозных убеждений, исторических личностей и значительных событий, произошедших во время рождения ребенка.

В современную эпоху рассматривается влияние кино и фильмов, а также контактов с другими народами на традиции именования. В статье также упоминаются обряды, проводимые при наречении имени детей.

Ключевые слова: тюркские народы, имя, традиции именования, культура, верования.

Giriş / Introduction.

Akademik Afad Qurbanov yazır: “Bütün xalqlarda şəxs adlarının vəzifəsi cəmiyyət üzvlərini bir-birindən fərqləndirməkdir. Ad vasitəsilə insanların birini digərindən seçmək olur. Ona görə də dünyada adsız heç bir şəxs və heç bir cəmiyyət yoxdur. Adlar olmadan cəmiyyətin formalaşması və yaşaması da qeyri-mümkündür. Deməli, ad insan üçün ən zəruridir, onsuz heç cür ötüşmək olmaz” [Qurbanov, 2019:9].

Adın varlığı ilk insanın varlığı ilə ortaya çıxmışdır. Müqəddəs kitabımız “Qurani-Kərim”ə görə, ad vermək Həzrəti Adəm yaradılandan bəri mövcuddur. Allah Həzrəti Adəmi yaratdıqdan sonra ona “Adəm” adını verdi və ilk advermə anlayışı yarandı. Ətrafımızda olan hər bir şeyin, hər bir anlayışın, hər bir

varlığın xüsusi bir adı vardır. İnsanlar birgə yaşamağa başladıqları vaxtdan bəri daha asan və rahat ünsiyyət qurmaq üçün ətraflarında gördükləri canlı və cansız varlıqlara xüsusiyyətlərinə görə adlar qoymağa başladılar. İnsanlar ad verməklə varlıqları təsnif edir və konkretləşdirir. İllər keçdikcə dünyanın bütün xalqlarında advermə prosesi özünə yer tapmışdır və advermədə bir sıra dəyişikliklər baş vermişdir.

Advermə prosesi mədəniyyətdən mədəniyyətə və zamandan asılı olaraq dəyişir. İnsanların yaşadıqları coğrafiya, onların inancları və dünyagörüşü adların qoyulmasına və adlandırılacaq şeylərə təsir göstərir. Ona görə də hər bir xalqın öz mədəniyyətini əks etdirən adqoyma ənənəsi var. Dünyanın digər dillərində olduğu kimi, ortaq türk dillərində də advermənin xüsusi əhəmiyyəti vardır. Dildəki hər bir xüsusi ad digərindən fərqlənir. Advermə doğulduğu andan insanın cəmiyyətə qəbulunu təmin etmək üçün yerinə yetirilən bir ənənədir. Advermənin əsas məqsədi şəxsiyyəti sosial dəyərlər kontekstində tanımaqdır. Cəmiyyətdə, müxtəlif kollektivlərdə, ailədə insanları bir-birindən ad vasitəsi ilə ayırmaq olur. Ümumiyyətlə, advermə anlayışı olmasa idi, cəmiyyətdə çox böyük dolaşıqlıq yarana bilərdi. Advermə bəşər tarixinin bütün dövrlərində olmuşdur. Tarixən verilən ilk adlar, adlandırılma yolları bir-birinə bənzəsə də, sonrakı dövrlərdə ölkələrin əlaqələri nəticəsində adlandırma ənənələri də dəyişmişdir.

Türk xalqlarında adverməyə xüsusi əhəmiyyət verilmişdir. Advermə çox çətin, məsuliyyət tələb edən bir prosesdir. Hər bir xalq mədəniyyətinə, adət-ənənələrinə, dünyagörüşünə, xalqın arzu və istəyinə uyğun olaraq, şəxs adları işlədir. Türklər uşaqlarını adlandırılmasına çox ehtiyatla yanaşırdı. Qədim zamanlar türklər yeni doğulan uşaqlara oğlan və qız olaraq müraciət etmişdir.

Ortaq türk dillərində advermə ənənələri müxtəlif prinsiplərə əsaslanmışdır:

1) Müsbət arzu, istəyə uyğun olaraq verilən adlar:

− Uzun ömür arzusu ilə uşaqlara Canuzak, Qomerozak, Minyaşar və s. adlar verilir;

− Uşaqların sağlam, gümrah, möhkəm və dözümlü olmasını özündə ehtiva edən adlara Salamat, Alman, Polad, Temir, Demir, Taşbulat, Aydəmir və s. adları misal göstərmək olar;

− Uşaqların güclü, qəhrəman, igid olmasını arzu edənlər Qəhrəman, Alp, Alpak, Barlas və s. adları uşaqlarına qoyurlar;

− Övladının oxumuş, ağıllı, elmli olmasını arzu edənlər Aqil, Maarif, Nurqaləm, Olimtoy, Esjan və s. adlar qoyur;

− Uşaqlara özündə dövlətli, zəngin olmağı ehtiva edən adlara Dövlət, Dauletsa, Xəzinəbanu, Bekbay və s. adları misal göstərmək olar;

− Zərif, gözəl, mehriban, nəzakətli, dost, təmiz olmaq arzusu ilə uşaqlara Zərif, Gözəl, Əntiqə, Qüzəlcan, Fərəh, Akbay, Arak, Naz, Dostəli və s. adları nümunə göstərmək olar.

2) Uşaqlara xatirə adların, yəni baba-nənələrinin adının qoyulması da advermə ənənələri sırasında özünəməxsus yer tutur.

3) Övladlarına tarixi və görkəmli şəxsiyyətlərin, dövlət xadimlərinin adlarının verilməsi də advermə ənənəsinə daxildir.

4) Körpələrə etnonimik, toponimik, hidronimik, zoonimik, kosmik və metereoloji anlayışlarla bağlı adların verilməsi türk xalqlarının advermə ənənələrinə daxildir.

5) Advermə ənənələri sırasına zahiri əlamətə görə advermə də daxildir.

Türk mədəniyyət tarixində uşağa qoyulan adın onun taleyinə təsir ediləcəyinə inanırdılar. Bu səbəbdən ad seçiminə böyük diqqət və əhəmiyyət vermişlər. Əgər uşaq ilk günlərdə xəstə olurdusa, ona verilən adın uşağa ağır gəldiyini düşünərdilər. Türklərdə uşaq doğulduqdan sonra uşağa ikinci (göbək) adı verilərdi. Göbək adı ilə bağlı inanclar da var. Mənbələrdə qeyd olunur ki, İslam dini qəbul ediləndən sonra göbək adı kimi uşaqlara peyğəmbər və yaxınlarının adı verilərdi.

Qədim türklər və onların yaxın qonşuları olan monqollarda yeni doğulan uşaqlara fərqli şəkildə adlar qoyulardı. Uşaq doğulan zaman baş verən hadisəyə görə − evə gələn qonağa görə (Tilənçi), uşaq doğulandan sonra görülən ilk əşya (Tuluy), heyvan, bitkiyə görə ad verilərdi.

Türklər yaşadıqları dövrün sosial, siyasi, iqtisadi xüsusiyyətləri və həyat tərzindən asılı olaraq uşaqlara fərqli-fərqli adlar qoyurdular. Tarixin müəyyən dövrlərində türklər müstəmləkə şəraitində yaşadıqları zaman azadlıq arzularını uşağa verilən adlarla bildirirdilər. Həmçinin müxtəlif dövrlərdə fərqli dinlərə olan inanc uşaqlara verilən adlarda da hiss olunurdu. İslam dini qəbul edildikdən sonra uşaqlara əsl adı qoymazdan əvvəl oğlan uşaqlarına Abdulla, qız uşaqlarına Abidə adı verilərdi. Bununla yanaşı, islam dininin təsiri ilə ərəb və fars dilindən də dilimizə çoxlu adlar keçmişdir.

Qədim mənbələrdə uşağın doğulduğu günün ona verilən adla bağlılığı qeyd olunmuşdur. Həftənin bazar ertəsi, çərşənbə, cümə axşamı, cümə günləri müqəddəs günlər sayıldığı üçün uşaqlara adlar bu günlər qoyularmış. Qırğız və qazax türklərində körpələrə doğulduqdan bir həftə sonra ad verilirdi.

"Tarixən azərbaycanlı ailələrində uşağa ad seçmək ənənəsi indiki kimi olmamış, bu proses ictimai-tarixi inkişafla bağlı zaman-zaman məzmun və formaca dəyişib təkmilləşmə yolu keçmişdir" [Qurbanov, 2019:38]. Azərbaycan dilində advermə adət-ənənələri ilə bağlı ilk yazılı nümunələrə "Kitabi-Dədə Qorqud" dastanında rast gəlirik. Dastanda uşaqlara doğulan kimi ad verilmədiyi göstərilir. Onlar yetkinlik yaşına çatıb hər hansı bir qəhrəmanlıq göstərdikdən sonra ad alardılar. Boyların hər birində igidlik göstərmiş qəhrəmana adları Dədə Qorqud qoyardı.

Tarixən Azərbaycanda uşağa adı təbiətin özü qoyarmış. Yəni uşaq olarkən hansı təbiət hadisəsi baş verərdisə, həmin hadisəyə uyğun ad qoyularmış. Azərbaycanda advermə ənənələri sırasında bədii əsərlərin, şeirlərin, romanların obrazlarının adlarının verilməsi də qeyd edilə bilər. Məsələn, Şirin, Nüşabə, Sevil, Solmaz və s. Azərbaycan, habelə türkmənlərdə əgər ailədə qız çox olardısa, onlara "Tamam, Bəsti, Doytuk, Eter" və s. bu kimi adlar qoyulardı. Azərbaycanda uşaqlara adı ailə böyükləri körpənin qırxı çıxmadan qoyurlar.

Emrah Yılmaz türkmənlərdə advermə ənənələri barəsində qeyd edirdi: "Türkmənlər adqoyma ənənəsinin əhəmiyyətini və zənginliyini vurğulamaq üçün "adı asumandır" ifadəsini işlədirlər. Bundan əlavə, onlar nəslin davamlılığını, uşaqların və ailələrin xoşbəxtliyini də düşünürlər; Uşaqlı ev bazara, uşaqsız ev qəbrə gedir; Uşaqlı qadını gülə, uşaqsız qadını dul qadına, meyvəsiz ağaca bənzədən bir çox atalar sözləri deməkdən də çəkinmirdilər" [Yılmaz, 2020:213].

Türkmənlərdə yeni doğulan uşağa üç gün ərzində ad verilməsini daha məqbul hesab edirdilər. Yeni doğulan uşaqlara ad verilərkən nəslin böyükləri günəş doğan vaxtdan bir araya yığışardılar. Təklif edilən adlar müzakirə edilib, həmin adın yaxın ailələrdə olub-olmadığına diqqət edilərdi. Həmçinin türkmənlərdə uşağın bədənində olan bəzi keyfiyyətlərə görə adlar verilirdi. Məsələn, uşağın barmaqları bir-birinə birləşmiş şəkildə dünyaya gəlibsə, həmin uşağa Qoşa adı, gur saçları olan uşağa Saçlı, doğulan qız uşağının saçları sarı olardısa, Sarı, Sarıbibi adı, oğlan uşağına isə Sarıbay, Sarıhan, Sarımırat və s. adlar qoyulardı. Türkmənlərdə yeni doğulan uşaqların bədənində çil (hal) olardısa, bu uşağın gözəl bəxti olacağına, uğurlu olacağına inanılardı.

Uşaqların doğum sırasına görə advermə ənənəsi də özünü göstərir. İlk uşağın evə uğur gətirdiyini düşündükləri üçün onlara tərkibində "ak" hissəciyi olan "Akat, Akveli, Akmaral" kimi adlar qoyulardı. Uşaq dünyaya gəldikdə atanın yaşına uyğun oğlan uşaqlara ad qoyulması da türkmənlərin advermə

ənənəsində özünəməxsus yer tutur. Həmçinin bəzi türkmən və özbək qadınları uşaq doğulandan sonra pəncərədən baxanda gördükləri ilk şeyin adını uşaqlara verərdilər. Türkmən, qazax, qaraqalpaq xalqlarında uşaqlara həftənin günlərinin adları şəxs adları kimi tətbiq olunur. Məsələn, Ekşem / ek − şenbe, Çeşəm / çarşenbe və s. Türkmənlərdə həmçinin Əzraili qorxutmaq üçün uşaqlara iki ad qoyardılar; əsas adı gizlədib, başqa adla səslənərdilər.

Bütün türk dillərinə xas olan advermə ənənələrinə tatar türklərində də rast gəlinir. Ortaq ənənələrlə yanaşı, tatar türklərində maraqlı ənənələrə də rast gəlmək olar. Bu ənənələrdən birincisi budur ki, uşağa ad verilən zaman çaxmaq yandırardılar. Çaxmaq hansı ad səslənəndə yanardısa, uşağa həmin ad verilərdi.

Qaraçay-Balkar türklərində ilk uşaqlara ata-anaları deyil, əgər uşaq qızdırsa, nənəsi, uşaq oğlandırsa, babası ad verir. İkinci uşaqlara evə gələn ilk qonaq ad qoyarmış.

Qırğızlarda uşağa ad qoymaq çox məsuliyyətli iş sayılır, çünki advermə uşağa verilən ilk və ən böyük hədiyyə sayılır. Uşaqların ad verilən zaman qulaqlarına azan oxunarmış. Həmçinin qırğızlarda "advermə toyu" adlanan məclis təşkil olunur. Qırğız xalqında da türkmənlərdə olduğu kimi, uşağı Əzraildən qorumaq üçün onlara iki ad vermək ənənəsi var. Qırğızların advermədə maraqlı adətlərindən biri də yaz mövsümündə doğan uşaqlara Tailoobai, qış mövsümündə doğulan uşaqlara Kıştaboi adları verilməsidir. Qırğızların digər bir maraqlı adəti də odur ki, uşaq doğulmamışdan qabaq atası harda olubsa, uşağa həmin yerin adını verərlərmiş. Türkmənlərdə olduğu kimi, qırğızlarda da uşaq anadan olarkən rəngi qarabuğdayıdırsa, "kalıbey, kalıbek" adları, dərisi qırmızı rəngə çalarsa, Anarbay adları verilirmiş. Qırğız və qazaxlarda uşağa on beşgünlük olanda ad qoyularmış.

Axıska türklərində uşaqlara ad verilərkən daha çox dini adlara üstünlük verilir. Xakas və qaqauz türklərinin də müəyyən advermə ənənələri var. Ad verərkən bəzən xristian təqviminə əsaslanır, uşaqları xaç suyuna salırlar. Qaqauzlarda uşaqlara adları ataları qoyur, soyadları isə bir neçə nəslin adı ilə bağlı olur. Xakaslarda uşaqlara doğumdan 4 gün sonra ad verilir. Həmçinin xakaslarda bəzi adlar vardır ki, həm qız, həm də oğlan adı kimi işlənir. Uşaqları pis ruhlardan qorumaq üçün gecələr adları ilə çağırmazdılar.

Altay türklərində uşaqlara adı atası verərdi. Bu ad daha çox uşaq anadan olandan sonra evə girən birinci qonağın adı olardı. Bununla yanaşı, ilk görülən əşyanın da adının verildiyi hallar olurdu. Altay türklərinin digər advermə adətlərindən biri də budur ki, əvvəlki uşaqları ölmüş ailələr yeni doğulan

uşaqlarına pis adlar verərlərmiş.

Yakut türklərinin advermə ənənələrində bir sıra fərqli xüsusiyyətlər vardır. Uşaqlara ilk adları doğulduqdan üç ay sonra, qəhrəmanlıq göstərdikdən sonra verilərmiş.

Uyğurlarda uşaq anadan olduqdan 3 gün sonra ailənin ən yaşlısı uşağa "təxmini ad" verir, 40 gündən sonra "ad toyu" adlanan məclis keçirilir, bu bayramda imam uşağa əsl adını qoyur. Bu məclisdə uşaqların üzünə duvaq örtülür və azan oxuyaraq adı qulağına deyilir.

Ümumiyyətlə, oğuz türklərində uşaqlara verilən adlar aşağıdakılardır:

Göbək adı: Uşaqların göbəkləri kəsilərkən verilən və onların ilk adıdır. Hətta inanca görə, axirətdə insanlar göbək adları ilə çağırılacaqlarmış.

Azan adı: Uşağın sağ qulağına azan oxunarkən söylənən əsl adlarıdır.

Müvəqqəti ad: Uşağın doğulmasından üç ay sonra verilən birinci addır.

Əsl ad: Uşağın qəhrəmanlıq göstərdikdən sonra aldığı addır.

Ləqəb: İnsanlara əsas adlarından ayrı olaraq, fiziki, sosial xüsusiyyətlərinə görə verilən addır.

Yuxarıda türklərin qədim advermə ənənələrini qeyd etdik. Lakin zaman keçdikcə hər bir sahədə olduğu kimi, advermə ənənələrində də xeyli dəyişikliklər baş vermişdir. İllər keçdikcə bəzi adlar fonetik cəhətdən dəyişir, bəzi adlar köhnəlmiş, yeni-yeni adlar meydana gəlmişdir. Yeni dövrdə advermə zamanı müasir tələblər və prinsiplər nəzərə alınır. Müasir dövrdə valideynlər uşaqlara nadir ad qoymağa daha çox meyil edirlər. Bunun nəticəsində qəribə adlar meydana çıxır.

Müasir dövrdə başqa xalqlarla əlaqələrin genişlənməsi, yeni filmlərin və kinoların çəkilməsi uşaqlara ad verilməsində böyük rol oynayır. Artıq kino, filmlərdə obrazlara verilən fərqli adlar insanlar tərəfindən bəyənilərək uşaqlara qoyulur. Xarici filmlərdəki qəhrəmanların adları olduğu kimi və ya bir sıra dəyişikliklər edilərək uşaqlara verilir. Nümunə olaraq "Çalıquşu" filmini gösətərə bilərik. Film yayımlandıqdan sonra Azərbaycan və Türkiyədə doğulan qızların bir qisminə Fəridə adı qoyulurdu. Həmçinin müasir dövrümüzdə mahnı sözlərinin də advermə də az da olsa, rolu var.

Müasir türk xalqlarında ad seçərkən onun mənası, səslənməsi və quruluşu da əsas götürülən cəhətlərdəndir.

Nəticə/Conclusion.

İnsanlar həyatları boyu bir-birləri ilə sağlam ünsiyyət qurmaq və ünsiyyətdə olan çaşqınlığı aradan qaldırmaq üçün ətrafda gördükləri hər bir

obyektə ad vermək məcburiyyətində qalmışlar. Müxtəlif inanclar və adət-ənənələr hər kəsin bir adı olduğunu və uşaqlara ad verilməli olduğunu dəstəkləyir.

Ümumiyyətlə, türk xalqlarının mədəniyyətində advermə ənənələri köklü bir tarixə malikdir. Tarixən türk xalqlarında advermə ənənəsinə heç vaxt dırnaqarası ənənə kimi baxılmayıb və hər bir dövrdə böyük əhəmiyyət kəsb etmişdir. Demək olar ki, yaşadıqları çoğrafiya və orada qarşılaşdıqları mədəniyyətlər, adət-ənənələr türk xalqlarının advermə ənənələrinin formalaşmasına əhəmiyyətli təsir göstərmişdir. Türk xalqları rastlaşdıqları mədəniyyətlərdən, adət-ənənələrdən təsirlənsələr də, bu adət-ənənələri öz adətləri ilə sintez etməyi bacarmışlar. Bugünkü advermə adət-ənənələrində dəyişikliklər olsa da, öz mahiyyətini qoruyub saxlayır. Digər tərəfdən, köhnə advermə ənənələri müasir dövrümüzdə davam etsə də, advermə mərasimləri o qədər geniş yayılmır. Tarixən ad vermək üçün xüsusi mərasimlər, rituallar tətbiq edilirdi. Bu mərasimlər bəzən uşaq doğulandan dərhal sonra, bəzən bir neçə gün sonra keçirilirdi. Verilən adlar qismən dəyişsə də, advermə ənənələri bu gün də davam edir.

ƏDƏBİYYAT/REFERENCES

1. Qurbanov, Afad (2019). Azərbaycan onomalogiyasının əsasları. – İstanbul: İmak.− 432 s.

2. Qurbanov, Afad (2019). Azərbaycanlı şəxs adları ensiklopediyası. – İstanbul: İmak. − 256 s.

3. Abdurrahman, V. (2004). Türklerin ad koyma gelenekleri üzerine bir inceleme. // "Milli Folklor". − №16 (61). – s.124-133.

4. Yılmaz, E. (2020). Türkmen kültüründe adverme geleneği ve kişi adları. // "Dil araştırmaları". № 27. – s.211-246.

Məqalə tarixçəsi

Daxil olub *25.05.2024*
Düzəlişə göndərilib *02.06.2024*
Qəbul edilib *11.06.2024*
Nəşrə tövsiyə edib *Mahirə Hüseynova*
filologiya elmləri doktoru, professor